Xalq qəzeti.-2023.- 17 may.- S. 7.

**Bu gün ölkələrimiz arasında əlaqələr bütün istiqamətlərdə uğurla davam etdirilir. Hazırda Özbəkistanda 40 mindən çox azərbaycanlı yaşayır. Onlar bu ölkənin sosial-iqtisadi, mədəni və digər sahələrində fəal iştirak edirlər. Dövlətimizin başçısı İlham Əliyevin xarici siyasətində başlıca məsələlərdən biri də uzaq, yaxın, bütün dost və qardaş ölkələrlə əməkdaşlığa xüsusi önəm verilməsidir. Həmçinin dünyanın hansı nöqtəsində olmağından, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının taleyinə laqeyd yanaşılmamasıdır.**

# Azərbaycan–Özbəkistan münasibətləri yeni müstəvidə



Prezidenti İlham Əliyev mayın 15-də Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı qəbul edərkən bu barədə ətraflı danışılıb. Söhbət zamanı ümummilli liderin dost və qardaş Özbəkistanla əlaqələrə böyük diqqət yetirdiyini xatırladan dövlətimizin başçısı bu siyasətin hazırda da bütün istiqamətlərdə uğurla davam etdiyini məmnunluqla vurğulayıb. Prezident İlham Əliyev Özbəkistanın dövlət başçısı ilə dostuq münasibətlərinin ikitərəfli əlaqələrimizin genişlənməsi işinə xidmət etdiyini bildirib və bu işdə qarşılıqlı səfərlərin önəmini diqqətə çatdırıb.

Dövlətimizin başçısı bu yaxınlarda Füzulidə olarkən Özbəkistan Prezidenti tərəfindən özbək xalqı adından hədiyyə olaraq burada inşa edilən məktəb binasında aparılan tikinti işləri ilə tanış olduğunu məmnunluqla xatırladıb.

Yeri gəlmişkən, 2021-ci ilin noyabr ayında İstanbulda Türk Dövlətləri Təşkilatının VIII Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev işğaldan azad edilmiş Füzulidə Özbəkistan büdcəsinin vəsaiti hesabına məktəb tikiləcəyini vurğulamışdı. Hazırda tikinti işləri yüksək səviyyədə aparılır. Beş korpusdan ibarət olan məktəb binası Özbəkistan dövlətinin işğaldan azad olunmuş Füzuli torpağına və füzulililərə qardaş töhfəsidir.

***V.BAYRAMOV,***
***Q.KƏNGƏRLİ***